# 1980-ci illər Türkiyə romanında yadlaşma problemi
## *(Mehmet Əroğlunun romanları əsasında)*

**Mehman Həsənli**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: mehman.hesen@gmail.com

**Annotasiya.** 1980-ci illər Türkiyə nəsrində, xüsusilə romanında ciddi paradiqmatik dəyişiklik baş vermiş, janrın ənənəvi xüsusiyyətləri cəmiyyətdə cərəyan edən hadisələrin təsiri ilə transformasiya prosesindən keçmişdir. Nəticədə yaranan yeni romanın tanınmış müəlliflərindən biri Mehmet Əroğlu olmuşdur. Mehmet Əroğlunun tədqiqata cəlb edilmiş "Tənhalığın ortası", "Gec qalmış ölü", "Yarımçıq yürüş" və "Adını unudan adam" romanları insana biganə münasibət, yadlaşma, tənhalıq motivləri üzərində qurulmuşdur. Məqalədə Mehmet Əroğlunun romanlarında yadlaşma probleminin əksi tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** Türkiyə, 1980-ci illər, Mehmet Əroğlu, tənhalıq, yadlaşma

**Məqalə tarixçəsi:** göndərilib – 01.11.2022; qəbul edilib – 16.11.2022

# The problem of alienation in the Turkish novel of the 1980s
## *(Based on the novels by Mehmet Eroglu)*

**Mehman Hasanli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: mehman.hesen@gmail.com

**Abstract.** A serious paradigmatic change occurred in the Turkish poetry of the 1980s, especially in the novel, and traditional features of the genre went through a process of transformation under the influence of social events. One of the famous authors of the new novel was Mehmet Eroglu. The novels by Mehmet Eroglu involved in the study such as "The Middle of Desolation", "The Delayed Dead", "The Walk Interrupted" and "The Man Who Forgot His Name" were based on the motifs of indifference to the person, alienation and loneliness. In the article have been studied the reflection of problem of alienation in the novels by Mehmet Eroglu.
**Keywords:** Turkey, 1980s, Mehmet Eroglu, loneliness, alienation

**Article history:** received – 01.11.2022; accepted – 16.11.2022

### Giriş / *Introduction*

1980-ci illərdə janr baxımından yenilənən, dəyişən Türkiyə romanında Kafkaesk üslubun təsiri ilə tənhalığı, yadlaşmanı əsas ideya kimi seçən nəsr nümunələri meydana çıxırdı.

1980-ci illər Türkiyə romançılığının tanınmış imzalarından olan Mehmet Əroğlunun yaradıcılığında Karl Marksdan gələn və postmodern ədəbiyyatın əsas istinad nöqtələrindən biri olan yadlaşma problemi, fərdin özünü axtarışları olduqca qabarıq şəkildə öz ifadəsini tapmışdır. Karl Marksın kapitalist münasibətlərindəki rəqabətin insanlar arasında yadlaşmaya səbəb olacağı tezisi [3] sonralar modernist və postmodernist ədəbiyyatın əsas özünüifadə elementlərindən birinə çevrildi.

**Əsas hissə / *Main Part***

Ötən əsrin ikinci yarısında Türkiyədə baş verən hadisələr, ictimai-siyasi qruplar arasındakı münasibətlərin kəskin şəkil alması, baş verən çevrilişlər cəmiyyətdə fərdin qeyri-müəyyən ictmai-siyasi situasiyada kim olduğunu dərketmə zərurəti ilə qarşı-qarşıya qalması Mehmet Əroğlunun romanlarında "Mən kiməm, kim? – sualının meydana çıxmasını şərtləndirmişdir. Araşdırmaya cəlb etdiyimiz zaman kəsimində Mehmet Əroğlunun dörd romanı – "Tənhalığın ortası", Gecikmiş ölü", "Yarımçıq yürüş" və "Adını unudan adam" əsərləri işıq üzü görmüşdür.

Mehmet Əroğlunun "Tənhalığın ortası" romanı insanın cəmiyyətdə özünüaxtarışın, yadlaşmanın depressiv şəkildə yaşamağın maksimalist şərhi xarakterindədir. Frans Kafkanın Qreqor Zamzası kimi, Mehmet Əroğlunun Ayxan İlyasoğlusu da fərd olaraq ətrafdakıların münasibətindən əziyyət çəkir. Bəli, ideya olaraq "Tənhalığın ortası" romanını Frans Kafkanın "Çevrilmə" romanı ilə müqayisə etmək olar. Hər iki romanın qəhrəmanları yadlaşmanı, biganəliyi yaşanması mümkün olan ən dərin qatlarda hiss edirlər. Lakin Mehmet Əroğlunun romanında hər hansı metamorfoza hadisəsi baş vermir.

"Tənhalığın ortası" Ayxanın qarmaqarışıq yaşantılarının romanıdır. Romanın süjet xətti, təhkiyəsində də qarmaqarışıqlıq, xaotiklik özünü göstərir. Roman başdan-ayağa təhkiyəçinin xatırlamaları üzərindədir. Zaman və məkanca bir-birinə bağlanmayan keçidlər təhkiyəçinin kimlik arayışının məcmusu xarakterindədir. "Hər şey səni qəfil yaxaladı. Özünü tanımaq kimi bir dəhşəti yaşadın. Asan deyil. Ürəyindəki vəhşət səni cəsur birinə çevirdi" [4, s.43].

Romanın fəsilləri reallıq ilə irreallıq, mövcud zamanla təhkiyəçinin yaddaşında və yaxud xatirələrində olanların bir-birini əvəzləməsi şəklində qurulmuşdur. "Budur, saniyələrin, dəqiqələrin saatların keçmədiyi və pəncərənin önündə Fərdanı gözləyərək bitirəcəyim günlərdən daha biri. Tam dörd gün keçdi, hələ də yoxdur. Gəlmədi. Gəlmir. Gəlməyəcək. Qaranlıq suların dibinə doğru batıram. Gəlmir və o yamacdan aşağı doğru daha sürətlə yıxılıram.... Amma gəlmədi. Elə yorğunam ki, gözlərimi qapasam, yatacam. Amma o kabus, yaxama yapışan o kabus. Böyük, taxta gəminin içindəydim. Göy üzündə bir bulud belə yoxkən qorxunc fırtınanın içində sovrulurdum. Duzlu sular üzümü yandırırdı" [4, s.166].

Romanın qəhrəmanı Ayxanın qələbəlikdən qaçması, eyni zamanda da təklikdən qorxması əsərin böyük bir hissəsinin iki obrazın iştirakı ilə dialoqlar üzərində qurulmasını şərtləndirmişdir. İlyas-Keşiş, İlyas – Həkim, İlyas – Rəzzan münasibətləri romanın əsas dialoji tərəflərini təşkil edir. Xüsusən, romanın sonundakı İlyasın Keşiş haqqında Həkimə yazdığı məktubu romanda bir sıra qarmaqarışıqlığın aydınlaşmasına xidmət edir.

Ayxan leytenant kimi iştirak etdiyi müharibədə dərin mənəvi sarsıntılar keçirir. Bu sarsıntılar dəfələrlə onu intihara sürükləyir. Həm hərbçi kimi göndərildiyi kəndin Keşişi, həm müharibə dövründə onu müalicə edən Həkim və həm də dostu Zəfər vasitəsilə, əslində, onun adından məktublaşdığı Rəzzan Ayxanı düşdüyü ağır depressiv vəziyyətdən xilas etməyə çalışırlar.

Romandakı zaman anlayışı Ayxanın yaşantıları kimi nisbi xarakter daşıyır və Keşiş onun mahiyyətini bu konteksdə dəqiq ifadə edir. "Gerçək, insanın dünyanı necə xəyal etməsidir... Amma heç bir şey zaman qədər gerçək deyildir... Çözümlər həmişə zamanın içində gizlənir" [4, s.42].

Mehmet Əroğlunun "Tənhalığın ortası" romanı insanın düşə biləcəyi ən ağır depressiyanı, psixoloji çökməni təsvir edən Türkiyə nihilist ədəbiyyatının ən parlaq nümunələrindən biridir. Albert Kamyunun "Yad" romanında olduğu kimi, "Tənhalığın ortası" romanında da İlyas öz ölümünə doğru bunu təbii şəkildə qəbul edərək addımlayır.

Müəllifin "Tənhalığın ortası" romanından sonrakı "Gec qalmış ölü" əsərində hadisələr bitdiyi yerdən davam edir, eyni üslub, eyni xətt bu dəfə daha konkret və məhdud zaman kəsimində baş verir. Ankaranı intihar düşüncəsiylə tərk edən Ayxan İlyasoğlu İskəndərundadır və artıq iki aydır ki, dostu Zəfəri axtarmaqla məşğuldur. Və roman təhkiyəçi-qəhrəmanın iki aylıq həyatını sondan əvvələ doğru xatırlamaların məcmusudur. "Başa dönməliyəm. Bir ay yarım öncəyə..." [5, s.10]

Oteldə, üç saat ərzində ay yarımda olub-bitənlərin xatırlandığı "Gec qalmış ölü" romanı xatirə – gündəlik tərzində qələmə alınmışdır. "Sonun başlanğıcı, Ankaradan ayrılmağım. Sonun sonu isə, bu sabaha qarşı, saat beşdə, İskəndərunda bu otel otağında nöqtələnəcək..." [5, s.10]

Romanda Ayxan İskəndəruna dostu Zəfərin ardınca, onu tapacağı ümidi ilə gəlir. Əvvəlki romanda, "Tənhalığın ortası"nda onun ölməsi faktını gözardı edən təhkiyəçi-qəhrəman Zəfərin axtarışları fərqli zaman trayektoriyasında davam edirdi. "İz yenə sürüb gedirdi. Şəhərdən şəhərə, bir adamdan bir başqasına uzanan bağlantıları mən arxasınca getdikcə sanki biri çözürdü" [5, s.16].

Orxan Pamukun "Qara kitab" əsərindəki Qalib-Cəlal xəttinə burada Ayxan-Zəfər şəklində rast gəlmək mümkündür. Mehmet Əroğlunun romanındakı Ayxanın tapa bilməyəcəyini bildiyi halda, Zəfəri axtarması, onun yerinə keçərək ona çevrilməsi motivinin mahiyyətini "Qara kitab"da Qalibin Naimlə axtarışlarında, arxiv materialları əsasında solçuluğun nəqşbəndiliyə və ondan daha əvvəlki, sufi-hürufi mətnlərinə dayandığını açıqlamışdır. Romanda Ayxan Bahara özünü Zəfər kimi təqdim edir. Sonra nə qədər çalışsa da, Bahar onu Zəfər kimi qəbul edir. "Mənim bildiyim Zəfər sənsən" [5, s.224].

Mövlanənin Şəmsin öldürüldüyünü bildiyi halda, onu tamamilə başqa Səmtdə, Şamda axtarması ilə Ayxanın da Zəfərin Ankarada öldürülməsinə rəğmən, ay yarım müddətində onu İskəndərunda axtarması arasındakı paralelliklər romanda alluziyaya çevrilərək mətnin açar nöqtəsini təşkil edir. Ayxan üçün Zəfər onun ölümünü, intiharını ləngidən dolayısı yolla özünüaxtarışın, 1980-ci illər Türkiyə nəsrində geniş yayılmış kimlik axtarışı mövzusunun nisbətən fərqli planda təqdim edilməsidir. Ayxan sonda Zəfər olmaqdan qurtulmaq istəsə də, ətraf mühit bunu qəbul etməkdə çətinlik çəkir. "Mənim adım Ayxan", deyirəm ona baxmadan. İlk dəfə heyrət edir. Geriyə çəkildiyini, yad bir adamla qalmış kimi ürpəndiyini hiss edirəm. "Adım Ayxan", – deyə təkrarlayıram. "Zəfərdən ayrılmağımızın üzərinədən çox keçdi. Artıq ondan qurtulmalıyam." Cavab vermədən susur. "Taleyimi, gələcəyimi başqasının kölgəsinə artıq buraxmayacam. Mən həmişə Ayxanıydım, heç vaxt Zəfər olmadım" [5, s.275-276].

Ay yarım çəkən mübarizə sayəsində Zəfərdən xilas olmağı bacaran Ayxanın romanlar silsiləsinin əvvəlki hissəsində, "Tənhalığın ortası"nda olduğu kimi, yenə qarşısında bir yol – intihar edərək özünü xilas etmək qalır. "Bu qədər ili tətiyə toxunacağım o saniyə üçün yaşadım. Keçmişimlə gələcəyimi bir-birindən ayıracaq, zamanı saxlayacaq o saniyə üçün; artıq qorxmuram. Sevincimdən bağıra bilərəm. Ölümü bir qılıf kimi üzərimə keçirəcək və keçmişdən, məğlubiyyətlərimdən qurtulacağam. Artıq özgürəm" [5, s.276].

"Gec qalmış ölü" romanı "Tənhalığın ortası"ndakı Ayxan İlyasoğlunun başqasının, Zəfərin yerinə yaşadığı ay yarımlıq həyatın timsalında cəmiyyətdə kimlik problemini dərin psixoloji məqamlarına qədər göstərən nəsr nümunəsidir. Modernist estetika ilə yazılmış "Gec qalmış ölü" əsəri Frans Kafkanın "Çevrilmə"si və Albert Kamyunun "Yad" romanları ilə eyni estetik tərzdə yazılmışdır.

Mehmet Əroğlunun 1986-cı ildə çap olunmuş "Yarımçıq yürüş" romanı əvvəl yazdıqlarının ideya davamı olsa da, həm kompozisiyası, həm də ortaya qoyduğu yeni tənha insan – Qorqud Laçın modeli baxımından nəinki özünün, eləcə də 1980-ci illər Türkiyə romanının inkişafına rəng qatan əsərlərdən olmuşdur. Əvvəlki iki romanında Ayxan İlyasoğlunun keçirdiyi dərin psixoloji sarsıntıların, intihar düşüncəsinin süjetə gətirdiyi qırılmaları, qarmaqarışıqlığı bu romanda Qorqud Laçının nisbətən daha aydın mövqeyə malik olması müəllifin roman yaradıcılığındakı inkişafının göstəricisi idi.

1980-ci illər Türkiyə romanında aparıcılıq qazanmağa başlayan istiqamətlərdən biri də dedektiv nəsrin maraqlı nümunələrindən sayılan "Yarımçıq yürüş" romanında süjet Qorqud Laçının güllələnməsi üzərində qurulub və müəllif detektiv nəsrin qanunlarına uyğun olaraq, əvvələ qayıdıb cinayətin izini axtarır. Təbii ki, Mehmet Əroğlunun məqsədi detektiv əsər yazmaq deyildi, bu, bir fondur, örtükdür. Hadisələrin gedişi Qorqud Laçınla əlaqəli, romanda iştirak edənlərin prokurorluqda ifadələrinin alınması ilə izlənilir. Əsas ideya yenə də insanın tənhalığının dərin qatlarını göstərməkdir. Cinayət bir vasitəyə çevrilərək, Qorqud Laçının bir az da sirli və qorxulu şəxsiyyətinin açılmasına xidmət edir. Qorqud Laçının dürüstlüyünün, sadiqliyinin fonunda ətrafında baş verənləri, laboratoriya yanğınında onu atıb qaçanlara laqeyd münasibəti, onlara sadəcə gülərək cavab verməsi, ən ağır işgəncənin

qarşısında gülməsi ona qarşı qeyri-adi, anlaşılmayan bir maraq yaradır. Romandakı bütün qadınları məhz bu laqeyd gülüşü, bütün ağır cəzaların fonunda gülməsi ilə özünə cəzb edir. Həm məktəbdə, həm də bir universitetdə oxuduğu yoldaşları da bu amilə görə ondan qisas almaq fikri ilə yaşayırlar. Cinayətin törədilməsinin əsas səbəbi Qorqud Laçının naqislik qarşısında gülüşü və bu gülüşü ilə qarşısındakı saxtakar insanlarda dərin psixoloji travma yaratmağındadır. Gülüş romanda müəllifin mövcud cəmiyyətə münasibətini ifadə edən simvoldur. "Gülmək bütün insanlıq ideallarının çatmaq istədiyi ən son nöqtədir" [5, s.36].

Əli Bıçaqçıdan saxta sənəd düzəltdirməsi və sonda qaçarkən Sedat Benderin kimliyini götürməsini (halbuki yazıçı Qorud Laçının qanuni kimliyi ilə bağlı hər hansı təhlükənin olmasına dair ehtimal vermir) romanda kimlik arayışının izləri kimi xarakterizə etmək olar.

Romanda quyu motivi tez-tez işlənərək simvola çevrilir, ənənəvi mifoloji funksiyasını burada da qəribə şəkildə icra edir. Quyu onun sirrini gizləyən vasitədir. Ağacdan quyuya atılması, sonralar suyu quruduqdan sonra orada gizlənməsi əsər boyu bir sirr kimi saxlanılır. Quyu, sərçələr və kiçik qız (Ayşə) Qorqudun ucu-bucağı bilinməyən tənhalığının başlanma səbəbidir. Ondan əvvəli də iddia etmək olar, amma müəllif bunu sonsuz bir qaranlıq kimi təsvir edir. Quyu həm də onun sonu bilinməyən yalnızlığını simvolizə edir. Dehler (onunla birlikdə gəmidə işləyən alman) onun tənhalığını dənizlə müqayisə edirdi: "Sənin tükənmək bilməyən, lənət bir yalnızlığın var... Dəniz qədər sonsuz bir yalnızlıq" [6, s.115].

Qorqudun məktəbdə müdir müavininin onu sıxışdırmasına etiraz kimi əlini sobanın üzərinə basması və üzündə hər hansı bir ağrının ifadəsinə rast gəlinməməsi (..onun kiprikləri belə tərpənmirdi. Hələ də gülürdü. Ətinin iyini, qızararkən çıxardığı səsi eşidirdik" [6, s.62], yeddi metrə yaxın hündürlükdən dar quyuya başıaşağı atılması və hər hansı qorxu hissinin olmaması, çoxlarının bir neçə gün dözə bilmədiyi halda, əlli altı gün həbsxanada təcridə dözə bilməsi ("Heç təcridə əlli altı gün dözə bilən adam haqqında eşitdinizmi? Mən... Mən dörd gündə təslim olmuşdum..." [6, s.54] onun qeyri-adi, bir az da mifik obraz kimi səciyyələnməsini şərtləndirmişdir. Müəllif nağıl və əfsanə qəhrəmanlarına xas olan xarakterik xüsusiyyətlərdən yararlanmaqla, Qorqud Laçının mövcud cəmiyyətin onda yaratdığı yalnızlığı, tənhalığın abstrakt şərhini verməyi bacarmışdır.

Prokurorluqda cinayət üzərinə açılan işin araşdırılması zamanı alınan ifadələr nəticədə müttəhimin müəyyənləşməsinə xidmət etsə də, əslində, bu ifadələr roman süjetinin üzvi tərkib hissəsi kimi, Qorqud Laçının kimliyini, onun təbəddülatlı, qeyri-adi kimliyini çözmək üçün vasitələrdir. Bu ifadələr Qorqud Laçının bir neçə gün ərzində davam edən İzmir həyatından bəhs edən parçaların içinə yerləşdirilib, izahedici xarakter daşıyaraq, həmin hissə ilə birbaşa bağlılıq təşkil edir. Eyni zamanda onların bəzən də bir-birinə zidd ifadələri, bir tərəfdən, cinayətin açılmasına, digər tərəfdən, Qorqud Laçının gülüşünün onlarda yaratdığı dərin ağrının, psixoloji maneənin səbəblərini aydınlaşdırmağa xidmət edir.

Müəllif Qorqud Laçının xarakterindəki mifik elementləri fövqəlgücdə təsvir etməklə, əslində, ətrafdakıların saxta həqiqət pərdəsini yırtmağa, cəmiyyətdəki insanı tənhalığa sürükləyən səbəbləri gün üzünə çıxarmağa çalışıb. Əslində isə Qorqud Laçın, sadəcə, bir vasitə idi. Lakin müəllif qəhrəmanını qeyri-adi, fövqəl bir gücə sahib biri kimi təsvir etməklə, cəmiyyətdəki normaya çevrilməyə başlayan naqisliyin dərininə enməyə, onu bütün mahiyyəti ilə göstərməyə çalışıb. Mətin Giriftçi, Asım Hacıoğlu və Həsən bu baxımdan zidd qütbdə dayanaraq romanın mahiyyətini aydınlaşdırırlar. Qorqud onların mahiyyətini açan faktordur. "Əfsanə adam, qəhrəman, qurtarıcı kimi... Amma o, sadəcə, bir tacirdir: qorxu taciri. Bir ağacın təpəsinə çıxıb quyuya atlayaraq yaratdığı dəhşətlə hamımızı satın aldı. O gün, o lənət axşamüstü hamımızı cəsarətinin önünə qatdı; bizi içimizdəki, beynimizdəki qorxuyla əsir aldı. Özümüzü qorxu qarşılığında ona təslim etdik. Çünki o bizə qorxunun yenilə biləcəyini, keçiçiliyini sübut etdi" [6, s.145].

Qorqud Laçın qeyri-adi, insan şüurunun qəbul edə bilmədiyi xüsusiyyətləri ilə insanları manipulyasiya edir. Müəllifin əvvəlki romanlarının qəhrəmanı Ayxan yalnızlığın, tənhalığılın əsirinə çevrilərək dəfələrlə cəhd etdiyi nəticəyə çatır, nəhayət, intihar edir. Qorqud isə bu yalnızlıqdan ustaca istifadə edir, nə qədər fantastik görünsə də, özü-özünə qalib gələrək yalnızlıq duyğusunu vasitəyə çevirir, ağrı hissini keçərək onu gülüşlə əvəz edir. Buna görə də heç kim ona qalib gələ bilmir, ona qarşı

edilən bütün pislikləri heçə sayması hər kəsi özünə hədəf etməsinə səbəb olur. Romandakı əksər qadın obrazlar üçün Qorqud arzulanan, ələ keçirilməsi istənilən fərddir. Bunun əvəzində isə özünə qarşı diqqəti daha da artırır. Eyni zamanda bütün kişi obrazlar şüuraltında olsa da, Qorqudu öldürmək istəyirlər. "İnsanlar tamamilə özlərinə aid olan və kimsənin əlindən almayacağı bir şeydən, o şey dəyərsiz olsa belə, vaz keçməzlər. Onun tamamilə sahib olduğu şey ağrıydı və sevgiylə onun arasında hər zaman bu girmişdi. Nəticə: Əlçatmaz yalnızlıq" [6, s.155].

Cəsarət nə qədər güclü olursa olsun, qorxu və təhlükəylə baş-başa mübarizə apara bilməz. Qorqudun qeyri-adiliyi adi insanlara aid bu cəhətin üzərinə çıxması idi. O, bir sehrbaz, hətta cadugər kimi təsvir edilir.

Əsərdəki sirr, Qorqudun 18 yaşındaykən yazdığı esse idi. Müasir çağda fərqlənməyin, nəyisə yenidən kəşf etməyin qeyri-mümkünlüyündən bəhs edən yazısında Qorqud özünü dörd milyardından biri olmağının dəhşətli hal olduğunu bildirir.

Sonda Qorqudu Asimin vurduğu bəlli olur. Çox qəribədir ki, bu cinayəti Qorqudla birlikdə məktəbdə və daha sonra universitetdə birlikdə oxuduğu, bütün işgəncələrə rəğmən laboratoriya yanğınında Qorqudun həbs və işgəncə hesabına ələ vermədiyi Həsən üstlənməyə çalışır. Əsərdə Həsənin üzündəki yaradan qan axır və özünün dediyinə görə, yalnız Qorqud öldükdən sonra o yara sağalacaqdı. Bu element Həsənin törətdiyi, lakin cəzasını çəkmədiyi bir günahın və Qorqudun ona laqeydliyinin nəticəsində çəkdiyi ağrının simvollaşdırılmasıdır.

Mehmet Əroğlunun "Adını unudan adam" romanı insanın özünü, şəxsiyyətini axtarışlarının yeni və fərqli üsulla təqdim edən, Türkiyə nəsrində özünəməxsus bir kompozisiya quruluşuna malik nəsr nümunəsidir. 1980-ci illər Türkiyə nəsri üçün xarakterik olan şəxsiyyət axtarışları, fərdin özünütapma cəhdləri Mehmet Əroğlunun buna qədər təhlilə cəlb etdiyimiz hər üç romanında bu və ya digər şəkildə öz əksini tapmışdır. "Adını unudan adam" isə həqiqətən unutmanın və onu tapmaq üçün ciddi-cəhdlə çalışmanın romanıdır. Romanın qəhrəmanı Tariq 1969-cu il İsrail-Fələstin müharibəsində Fələstin tərəfindən vuruşmuş, dostlarını itirmiş və özü də dörd il əsirlikdə qaldıqdan sonra əsirlərin dəyişməsi yolu ilə xilas olmuşdur. Ailə qursa da, keçirdiyi dərin psixoloji sarsıntılar, keçmişlə bağlı içində yığılıb qalanlar onu rahat buraxmır. Quşadasına onunla keçmişə dönmək üçün hər il əsmər qızı axtarır. Nəhayət, onu tapır və Petra adlandırır. Tariq dostu Əlini, Əmi adlandırdığı qəhrəmanını təhkiyəsində, beynində canladırmaqla özünün keçmişini, dolayısı ilə kimliyini axtarıb tapmağa çalışır.

"Onun adı yoxdur", – deyirəm. "O, bir az öncə burada itirdi adını." İri bir damla burnuma dəyir. "Kaş mən itirsəydim. Tam on səkkiz ildir ki, O olmağa çalışıram" [7, s.174].

## Nəticə / *Conclusion*

1980-ci illərdə ciddi paraqdiqma dəyişikliyi keçirən, yeni janr keyfiyyətləri qazanan Türkiyə romanının inkişafında Mehmet Əroğlu və onun bu illərdə yazmış olduğu dörd romanının ("Tənhalığın ortası", Gec qalmış ölü", "Yarımçıq yürüş" və "Adını unudan adam") xüsusi yeri vardır. Romanda səbəb-nəticə əlaqəsinin qırılması, mərkəzi təhkiyə sisteminin dağılması kimi modern və postmodern elementləri Türkiyə nəsrinə gətirənlərdən biri Mehmet Əroğlu oldu. Frans Kafka və Albert Kamyunun əsərlərindəki yadlaşmanı Mehmet Əroğlu Türkiyə nəsrinin və cəmiyyətinin stixiyasına uyğun olaraq uğurla tətbiq etməyi bacarmışdır.

## Ədəbiyyat / *References*


1. Albert Kamyu. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2013.
2. Frans Kafka. Çevrilmə. Bakı: Qanun, 2022.
3. Karl Henrix Marks. https://www.ens.az/az/karl-marks
4. Mehmet Eroğlu. İşsizliğin ortası. İletişim yayınları, 2020.
5. Mehmet Eroğlu. Geç kalmış ölü. İletişim yayınları, 2020.
6. Mehmet Eroğlu. Yarım kalan yürüyüş. İletişim yayınları, 2020.
7. Mehmet Eroğlu. Adını unutan adam. İletişim yayınları, 2020.

## Проблема отчуждения в турецком романе 1980-х гг.
## *(по мотивам романов Мехмета Эроглу)*

**Мехман Гасанли**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: mehman.hesen@gmail.com

**Резюме.** В 1980-е годы в турецком издательском деле, особенно в романах, произошли серьезные парадигматические изменения, а традиционные черты жанра подверглись процессу трансформации под влиянием событий, происходящих в обществе. Вследствие одним из известных авторов рождающегося нового романа стал Мехмет Эроглу. Вошедшие в исследование романы Мехмета Эроглу «Посреди одиночества», «Запоздалый мертвец», «Прерванный марш» и «Человек, который забыл свое имя» основаны на мотивах равнодушия к людям, отчуждения и одиночества. В статье к исследованию привлечено отражение проблемы отчуждения в романах Мехмета Әроглу.
**Ключевые слова:** Турция, 1980-е гг., Мехмет Эроглу, одиночество, отчуждение